***Bioloji fəallığa malik qida əlavəsinin istifadəsi üzrə təlimat***
***(istehlakçılar üçün məlumat)***

*Bu məhsul bioloji fəallığa malik qida əlavəsidir. Dərman vasitəsi deyildir.*

**Fitosedin** damcı

Qidaya bioloji fəal əlavə

**Tərkibi**
Hər 5 ml damcının tərkibində:
*Aktiv maddələr:*

| | |
|---|---|
| Kalium fosfat (Kali Phosphoricum) | 0.1 mq |
| Kaliforniya eşşolsiyası (laləsi) (Eschscholzia Californica) | 5 mq |
| İnkarnat qonaqotu (Passiflora Incarnata) | 5 mq |
| İgnatiya amara (Ignatia Amara) | 5 mq |
| Pişikotu (Valeriana) | 5 mq |

*Köməkçi maddələr:*
Şəkər, askorbin turşusu, limon turşusu, ksantan qətranı.

**Xüsusiyyətləri**
**Kalium fosfat:** sinir sisteminin əsas qidalandırıcı biokimyəvi elementlərindən biridir. Əsəb gərginlikləri, narahatlıq, depressiya, baş ağrılarının qarşısını alır.
**Kaliforniya eşşolsiyası (laləsi):** streslə əlaqədar yaranan halların müalicəsində istifadə olunan ən qədim sakitləşdirici vasitələrdən biridir. Tərkibindəki əsas təsiriedici maddəsi sedativ və yuxugətirici effekti olan kalifornidindir. Onun yüksək dozası yuxugətirici təsirə malikdir, aşağı dozası isə narahatlığın və stresin azalmasına səbəb olur.
**İnkarnat qonaqotu:** yuxusuzluqda, həyəcanla və ya əsəbiliklə əlaqədar mədə-bağırsaq pozğunluqlarında simptomları yüngülləşdirmək üçün istifadə olunur.
**İgnatiya amara:** yuxu zamanı tez-tez oyanma, uzun müddət davam edən narahat yuxuların qarşısını almaq üçün istifadə olunur.
**Pişikotu:** əsasən əsəb pozğunluqlarından əziyyət çəkən insanlar üçün nəzərdə tutulur. Pişikotu yuxu gətirir, yuxunun keyfiyyətini yaxşılaşdırır və qan təzyiqini azaldır. Pişikotu beyin-onurğa beyni sisteminə təsir edir və sinir ağrılarında sakitləşdirici təsir göstərir.

**İstifadəsinə göstərişlər**
- yuxu pozğunluğu
- isterik nevroz
- nevroloji pozğunluqlar
- depressiya
- miqren
-xroniki yorğunluq
*Xəstəliklərin müalicəsi məqsədi ilə istifadə edilə bilməz.*

**Əks göstərişlər və əlavə təsirlər**
- preparatın hər hansı komponentinə qarşı yüksək həssaslıq;
- hamiləlik;
- laktasiya dövrü.
*Xəstəlik və ya dərman istifadəsi zamanı həkimlə məsləhətləşin.*

**İstifadə qaydası və dozası**
18 yaş və yuxarı yaşlı şəxslər üçün: gündə 2-3 dəfə 15-20 damcı
Tövsiyə edilən sutkalıq dozanı keçməyin. Qidaya bioloji fəal əlavələr tam dəyərli və balanslaşdırılmış qidalanmanı əvəz etməməlidir.

**Buraxılış forması**
30 ml damcı şüşə flakonda. Bir flakon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
Sərin, quru, günəş şuası olmayan və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**İstehsalçı**
**BION CORPORATION LTD.**
**282 Chase Road, Solar House**
London, Böyük Britaniya
www.bioncorporation.com